# Rusiyada ümumtəhsil sisteminin təkmilləşdirilməsi yolları müzakirə olunub

**Rusiya prezidenti Vladimir Putinin sədrliyi ilə Kremldə ümumi təhsilin inkişafı üzrə Dövlət Şurasının iclası keçirilib. Ümumi təhsil, onun hazırkı vəziyyəti və inkişaf perspektivlərinə həsr olunmuş iclasdakı çıxışında V.Putin yeni təhsil planlarının həyata keçirilməsində fəal iştirak edən icma liderlərinə, müəllimlərə, məktəb direktorlarına, siyasi partiyaların və hərəkatların nümayəndələrinə, eləcə də regionların və bələdiyyələrin rəhbərlərinə təşəkkür edib. Prezident qeyd edib ki, ölkə qarşısında bir sıra həlli vacib məsələlər durur. Dövlət başçısı əmin olduğunu bildirib ki, təhsil məsələsi heç də ikinci planda durmamalıdır. V.Putin çıxışında təhsil sahəsində baş verən müsbət məqamları qeyd edib: "Təkcə böyük şəhərlərdə deyil, həm də kənd məktəblərində tədris şəraitini yaxşılaşdırmaq mümkün olub. Rusiyada demək olar ki, bütün məktəblər internetə bağlıdır. Məktəblər müasir obyektlər, idman zalları ilə təmin olunub. Müəllimlik peşəsi bir daha gənc mütəxəssislər üçün hörmətli və nüfuzlu, cəlbedici və maraqlı bir peşəyə çevrilib. Müəllimlərin maaşı ciddi surətdə artıb.**

*Müəllimlərin əməkhaqları.* V.Putin bildirib ki, müəllimlər üçün əməkhaqqı qanunla orta iqtisadı göstəricilərə əsasən müəyyən olunub. "Hansı çətinlik olursa-olsun, hətta obyektiv çətinliklərə baxmayaraq belə, bunu yerinə yetirmək lazımdır. Çünki biz fundamental sahələrdə pozitiv addımlar atmasaq, onda yaxşılığa doğru dəyişikliklər heç vaxt baş verməyəcək".

*Yaxın onillikdə təhsilin məqsədi.* "Hesab edirəm ki, yaxın onillikdə biz qarşımıza Rusiya məktəbini dünyada ən yaxşılarından biri etmək kimi yeni səviyyəli və irimiqyaslı məqsəd qoya bilərik. Əminəm ki, bu vəzifə bütün siyasi qüvvələri, hakimiyyətin bütün səviyyələrini, ölkə vətəndaşlarını birləşdirməlidir; çünki bu məqsəd cəmiyyətin tələblərinə və milli inkişafı vəzifələrinə cavab verir. Planlarımızın həyata keçirilməsi üçün daha səmərəli, təsirli vasitələri birlikdə müəyyən etməyimiz vacibdir".

Prezidentin sözlərinə görə, məktəb zamanla ayaqlaşmalıdır, uşaqları dinamik, sürətlə dəyişən həyata hazırlamaq, onlara yeni bacarıq və vərdişləri öyrətmək, yeni bilikləri mənimsətmək, azad və yaradıcı düşünə bilməyi öyrətmək üçün hardasa onu hətta qabaqlamalıdır. "Bunun üçün ümumi təhsilin məzmununun daim yeniləşdirilməsinin səmərəli mexanizmi lazımdır", - deyə V.Putin qeyd edib.

*Müəllimlərin peşəkar inkişafı milli sisteminin üç istiqaməti.* Prezident müəllimlərin peşəkar inkişafının ümummilli sisteminin yaradılmasını təklif edib. *Birinci istiqamət* müasir müəllim hazırlığı proqramlarının tətbiqi və professional tələblərə cavab verən pedaqoqların ixtisasının yüksəldilməsidir. Bu işdə ali məktəblərin, elmi-tədqiqat institutlarının iştirakı genişləndirilməli, ən yaxşı müəllimlərin və ölkənin aparıcı məktəblərinin unikal təcrübəsindən istifadə olunmalıdır.

*İkinci istiqamət* keyfiyyətli, yaradıcı müəllim əməyinin maddi və mənəvi təşviqi üzrə effektiv mexanizmin tətbiqi, müəllimin fasiləsiz peşəkar inkişafı üçün stimulun yaradılmasıdır. "Bilirsiniz ki, indi müəllimlərə fəxri adlar, kateqoriyalar verilir və buna uyğun olaraq da əməkhaqlarına əlavələr olunur. Lakin əslində bu sistem kifayət dərəcədə özünün stimullaşdırıcı rolunu itirib. Əlavə mükafatlandırma hüququ, öz peşə statusu vaxtaşırı təsdiq olunmalıdır. Belə olan halda müəllim yeni bilik və bacarıqlar əldə etmək üçün motiv əldə edəcək".

Prezidentin bəhs etdiyi *üçüncü istiqamət* ixtisasın qiymətləndirilməsi sistemi, müəllimin potensialının və fəaliyyətinin nəticələrinin keyfiyyəti ilə bağlı olub. Müəllimin fəaliyyətinə başlıca qiyməti məmurlar deyil, onun həmkarları, peşəkar ictimaiyyət verməlidir. V.Putinin sözlərinə görə, sistem təkmilləşdirilməli, daha obyektiv, az bürokratik olmalıdır.

*Məzunlar tərəfindən müəllim əməyinin qiymətləndirilməsi.* Prezidentin diqqət yetirdiyi prinsipial məsələlərdən biri müəllim əməyinin məktəb məzunları tərəfindən qiymətləndirilməsi ilə bağlıdır. Dövlət başçısı müəllimlərin peşəkar inkişafına dair ümummilli sistemin hazırlanması və həyata keçirilməsi xahişi ilə Rusiya Federasiyası hökumətinə müraciət edib.

*Direktorların seçilməsi və peşəkar inkişafı sistemi.* Prezident məktəb direktorlarının seçimi və peşəkar inkişafı sistemini ciddi surətdə yeniləşdirməyə və təkmilləşdirməyə çağırıb. "Hesab edirəm ki, biz məktəb direktorlarının seçilməsi və peşəkar inkişafı sistemini ciddi surətdə yeniləşdirməli və təkmilləşdirməliyik ki, məktəbə parlaq, öz işinin vurğunu olan gənc menecerlər gəlsinlər", - deyə V. Putin bildirib.

*Məktəb və müəllimlərin bürokratik yükünün azaldılması.* Prezident müəllimlərin və bütövlükdə təhsil müəssisəsinin inzibati, kağız yükünün maksimum azaldılması zəruriliyini qeyd edib.

"Dövlət Şurasının işçi qrupu təklif edir ki, bürokratik, hesabat işini ilk növbədə məktəb təsisçiləri öz üzərlərinə götürsünlər. Əksər hallarda onlar bələdiyyə, eləcə də hakimiyyət orqanlarının regional təşkilatlarıdır. Mən işçi qrupundan olan həmkarlarımızın bu təklifi ilə tam razıyam", - deyə dövlət başçısı qeyd edib.

Prezident xatırladıb ki, ibtidai və yuxarı sinif şagirdləri birinci növbədə oxumalı, üçüncü növbə isə ümumiyyətlə tamamilə ləğv olunmalıdır.

*Vahid sosial təminatlar.* Prezident diqqəti belə bir məqama çəkib ki, mülkiyyət formasından (federal, regional, bələdiyyə və özəl məktəblər) asılı olmayaraq bütün ümumtəhsil məktəblərində oxuyan şagirdlər üçün vahid sosial təminatlar təmin edilməlidir. Söhbət ilk növbədə çoxuşaqlı və aztəminatlı ailələrdən olan və əlil uşaqlara güzəşt edilməsindən gedir.

*Müasir təhsil mühiti.* Prezident müasir təhsil mühitinin yaradılması haqqında danışıb. "Distant təhsilin və distant idarəetmə, informasiya texnologiyalarının üstünlüklərindən tam şəkildə istifadə etmək lazımdır. Hər bir məktəbli üçün məşhur müəllim və alimlərin mühazirələrinin, tədris materialları və vəsaitlərin yerləşdirildiyi, müəllimlər üçün öyrədici proqramların və müasir informasiya vasitələrindən istifadənin mümkün olduğu sadə elektron məktəbin yaradılması barədə Dövlət Şurasının işçi qrupunun təklifini dəstəkləyirəm. Bu məqsədlə ümumi təhsil müəssisələrinin İnternetə qoşulma sürətinin artırılması barədə məsələni müzakirə etmək istəyirəm", - deyə dövlət başçısı bildirib.

*Peşəyönümü haqqında.* Müzakirələrdə peşəyönümü məsələsi də kənarda qalmayıb. Prezident qeyd edib ki, məktəbdə uşaqlara şüurlu surətdə gələcəkdə əmək bazarında tələb olunacaq ixtisasları seçməkdə kömək etmək lazımdır ki, onlar öz ürəklərincə olan iş tapa, layiqli əməkhaqqı ala, həyatda öz yerlərini tuta bilsinlər. Prezident xüsusi vurğulayıb ki, bu işə təkcə ali məktəbləri, texnikumları deyil, həm də biznes, ilk növbədə, iri və orta biznes sahələrini cəlb etmək lazımdır.

*Əlavə təhsil və istedadlı uşaqlar.* Ümumiyyətlə, əlavə təhsilin, yaradıcılıq studiyaları və texniki dərnəklərin, idman bölmələrinin inkişafı davam etdirilməlidir. İstedadlı uşaqların axtarışı və onların dəstəklənməsi sistemi təkmilləşdirilməlidir. Əlbəttə ki, onların hamısını dəstəkləmək lazımdır. Muzeylər, teatrlar, kitabxanalar, vətənpərvərlik tərbiyəsi sahəsində ictimai layihələr, müxtəlif könüllülər hərəkatları müasir təhsil mühitinin ayrılmaz hissəsi olmalıdır. V.Putin əlavə edib ki, bu planların reallaşması üçün, ilk növbədə, təhsil sahəsinə görə məsuliyyət daşıyan regional hakimiyyət səviyyəsində ciddi resurslar olmalıdır.


**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*
**"Uçitelskaya qazeta"dan**